**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**
**QƏRAR**
**№ 56/18**

Bakı şəhəri                                                    28 dekabr 2023-cü il

**"Şəhərlərarası telefon rabitəsinin texniki vasitələri haqqında" 1-şəhərlərarası rabitə №-li illik rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 6 may tarixli 41/09 nömrəli qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. "Şəhərlərarası telefon rabitəsinin texniki vasitələri haqqında" 1-şəhərlərarası rabitə №-li illik rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2013-cü il 6 may tarixli 41/09 nömrəli qərarının 1-ci hissəsi ləğv edilsin.
2. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.
3. Aparatın Xidmət statistikası şöbəsinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsin.
4. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə edilsin.

**Sədrin səlahiyyətlərini müvəqqəti**
**icra edən, sədrin birinci müavini**                    **Vahab Məmmədov**